# Müasir dövrdə müəllim şəxsiyyətinə və peşəsinə verilən tələblər

**Könül Akif qızı Xuda–Zadə**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*"Pedaqoji psixologiya" kafedrasının müəllimi*
**E-mail:** konul.akbar.31@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova
psixol.ü.f.d., dos. N.T. Rzayeva

**Açar sözlər:** müəllim, şəxsiyyət, peşə, psixopedaqoji, tələb, fəaliyyət, bilik
**Ключевые слова:** педагог, личность, профессия, психолого-педагогический, требования, действие, знание
**Key words:** teacher, personality, profession, psychological and pedagogical, requirements, action, knowledge

Müəllim hazırlığı prosesində, xüsusilə də peşəyönümünə yiyələnmədə peşəyə verilən tələblər içərisində müəllim şəxsiyyəti mühüm yer tutur. Bu fenomen kompleks halda müəllim hazırlığı üçün zəruri olan cəhətləri özündə birləşdirir. Son dövrdə müəllim peşəsinin seçimində say baxımından çoxluq müşahidə olunmaqdadır. Bu baxımdan müəllim şəxsiyyətinə və peşəsinə verilən psixopedaqoji tələblərin araşdırılması və təhlili aktuallıq təşkil edir.

Müəllim şəxsiyyətinə verilən tələblər yalnız tələbədə şəxsiyyət keyfiyyətləri formalaşdırmağı və ya inkişaf etdirməyi nəzərdə tutmur. Hesab edirik ki, burada şəxsiyyətin dəyərləri, istiqamətləri, motivləri, idealları, peşəyönümü və s. kimi cəhətlər əsas götürülməlidir. Müəllim şəxsiyyətinə verilən tələblər dedikdə bir sıra suallara cavab vermək tələb olunur. Müəllim nəyin naminə çalışır, hansı məqsəd və məsələləri qoyur, məqsədlərə nail olmaq və məsələləri həll etmək üçün hansı üsulları və vasitələri seçir. Tələbələrin müəllim peşəsinə hazırlığında belə layihələndirilmə hazırlığın kompleks həyata keçirilməsi üçün psixopedaqoji şərtlərin ödənməsini tələb edir. Bu baxımdan müəllim əməyində, pedaqoji fəaliyyətdə şəxsiyyət mərkəzi amildir.

A.K. Markova özünün tədqiqatlarında müəllimin şəxsiyyətinin strukturuna aşağıdakıları aid edir:

— Şəxsiyyətin motivasiyası (şəxsiyyətin istiqamətliliyi və onun növləri);

— Şəxsiyyətin xassələri (pedaqoji qabiliyyətlər, xarakter və onun cizgiləri, psixi proseslər və şəxsiyyətin emosional-iradı vəziyyəti);

— Müəllimin şəxsiyyətinin təkrarolunmazlığını və unikallığını təyin edən şəxsiyyətin inteqral xarakteristikaları (pedaqoji özünüdərk, fərdi üslub, kreativlik) (5, s. 42).

Əlbəttə, şəxsiyyətin motivasiyası onun dəyər istiqamətlərinin, motivlərin, məqsədlərin, maraqlarının və ideallarının daxil olduğu elementlərlə şərtləndirilmişdir. Bu mənada müəllim şəxsiyyətinin strukturunda motivasiyanın rolu böyükdür. Məhz peşədə qalmaq, öz fərdi inkişafını peşə ilə bağlamaq motivasiyası müəllim hazırlığı üçün başlıca təhrikedici amildir. Tələblərin müəllim peşəsinə marağının artırılması üçün müxtəlif stimullaşdırıcı vasitələrdən istifadə edilməsi onun şəxsiyyətinin strukturunda motivasiyanın sabitliyinə və optimallaşmasına zəmin yarada bilir.

Problemə həsr olunmuş xüsusi tədqiqatlar göstərir ki, şagirdlərin xarici görünüşü, yumor hissi, ədalət hissi, səbir, həvəs, yaradıcılıq, qayğı və şagirdlərlə daima maraqlanma ilə bağlı

elastiklik kimi şəxsi xüsusiyyətlərin hamısı müəllimlərin fəaliyyətinin effektivliyinin artırılmasına köməklik göstərir. Bura həmçinin tədris, təlim və vəzifə funksiyaları ilə bağlı müəllimin mövqeyi və dəyərləri də daxildir ki, bunların hamısı onun əldə olunan biliklərin necə seçməsinə, qiymətləndirməsinə, başa düşməsinə, habelə təcrübədə onlardan necə faydalandığına öz təsirini göstərir. Çünki həmin təcrübə məhz bu biliklərlə formalaşır. Bununla yanaşı müəllim şəxsiyyətinə verilən tələblər müəllimin mövqeyində də öz əksini tapmışdır. Müəllimlərin mövqeyi onların vəzifələrinə qarşı olan sadiqliyinin dərəcəsinə, onların şagirdlərə necə dərs keçmələrinə və onlara qarşı necə davrandıqlarına, habelə, özlərinin peşədə inkişafını necə qəbul etdiklərinə öz təsirini göstərir (7, s. 357). Xüsusilə, öz tələbələrindən çox şey gözləyən və bütün şagirdlərə tədrisi aşılamaqda israrlı olan müəllimlər adətən daha çox effekt əldə edirlər.

Müəllimlərin fəaliyyətin effektivliyinin artırılmasına köməklik edən daha bir amil özlərinin mövcud işinə qarşı sədaqət hissi və tələbələrin, onların ailələrinin şəxsi həyatına qarşı olan maraqlarıdır. Bununla yanaşı bu keyfiyyətlərə "özünüdərketmə" və düşünmə qabiliyyətini də aid etmək olar. Çünki bu amillər müəllimin öz hərəkətləri və özü üzərində tənqidi və diqqətli düşünməyi nəzərdə tutur. Müəllim şəxsiyyəti və ona verilən tələblər müəllimin peşəkar vəzifə funksiyaları ilə əlaqədar olan, ibtidai təhsil və fasiləsiz təhsil vasitəsilə tərbiyə və inkişaf ediləbiləcək şəxsi keyfiyyətlər daxildir. M.Ə. Həmzəyev bununla bağlı yazır: "Müəllim şəxsiyyəti onun əməyinin sosial istiqamətini müəyyən edən əsas amildir. Müəllim əməyi çoxcəhətli psixi reallıqdır. Burada bir-biri ilə vəhdətdə olan üç cəhət xüsusi diqqəti cəlb edir. Bunlar pedaqoji fəaliyyət, pedaqoji ünsiyyət və müəllim şəxsiyyətinin xüsusiyyətlərindən ibarətdir. Onlar vahid məqsədə-cəmiyyətin sosial sifarişini həyata keçirməyə yönəlsələr də bir-birini təkrar etmirlər" (3, s. 170).

Müəllim hazırlığında müəllimin şəxsiyyətinin sturkturunda pedaqojiyönlülük də mühüm əhəmiyyət kəsb edir. Tədqiqatlar (Markova A.K., 1993) göstərir ki, pedaqojiyönülülük müəllimin öz peşəsinə motivasiyadır. Burada əsas cəhət müəllimin şəxsiyyətinin inkişafına təsirli istiqamətdir və o yalnız uşaqlara sevgi ilə məhdudlaşa bilməz. Sabit pedaqojiyönlülük müəllimə öz işində maneələri və çətinlikləri dəf etməyə kömək edən müəllim olmaq və müəllim olaraq qalmaq cəhdidir. Müəllimin şəxsiyyətinin yönlülüyü onun bütün peşəkar həyat fəaliyyətində və ayrı-ayrı pedaqoji situasiyalarda təzahür edir, onun qavramasını və davranış məntiqini, insanın bütün simasını təyin edir (5, s. 42).

McBer (2000) müəllimlərlə keçirilmiş müsahibə seriyasından 16 "peşə xüsusiyyəti", o cümlədən şəxsi xüsusiyyətləri və fərdi mövqeləri müəyyən etmiş və daha sonra onları beş qrupa ayırmışdır:

1. Peşəkarlıq: sədaqət, inam, etibarlılıq, hörmət;
2. Təfəkkür: analitik və konseptual təfəkkür;
3. Gözlənilən nəticələr: yüksək məqsədlərə nail olmaqdan azad etmək, daima həqiqəti dərk etməyə cəhd göstərmək (məsələn, şagirdlər, qanun-qayda) və təşəbbüskar olmaq;
4. Liderlik: elastiklik, şəffaflıq, öyrənməyə həvəs;
5. Başqaları ilə münasibət: təhsil prosesində iştirak edənlərlə effektiv qarşılıqlı əlaqə, birgə iş bacarıqları, dərketmə.

Müəllimin peşəkarlığı bir sıra meyarlara cavab verməlidir. B. Əliyev, K. Əliyeva, R. Cabbarov (4) onları aşağıdakı kimi qruplaşdırır:

1. Obyektiv meyarlar: pedaqoji fəaliyyətin effektiv təşkili (onun əsas növlərini öyrədici, inkişafetdirici, tərbiyəedici, habelə pedaqoqun fəaliyyətinə kömək edən-diaqnostik, korreksion, konsultosion, təşkilatı-idarəedici, özünütəhsil və s.)
2. Subyektiv meyarlar: davamlı pedaqoji istiqamətlənmə (peşədə qalmaq istəyi), dəyərlər,

özünə peşəkar kimi münasibət, əməkdən məmnunluq:

3. Prosessual meyarlar: pedaqoqun fəaliyyətində sosiallığa uyğun humanistik yönümlü texnologiyalardan istifadə;

4. Nəticəvi meyarlar: pedaqoji əməkdə cəmiyyət tərəfindən sifariş olunan (iştirakçıların şəxsiyyətinin formalaşdırlrması, sürətli və dinamik cəmiyyətdə həyata hazırlığın təmin olunması) nəticələrə nail olmaq (4, s. 154).

Müəllim şəxsiyyətinin strukturunda pedaqoji qabiliyyətlərin çox böyük önəmi var. Pedaqoji qabiliyyətləri şəxsiyyətin pedaqoji əməyin obyektinə, vasitələrinə, şərtlərinə və tərbiyə olunanın axtarılan keyfiyyət və şəxsiyyətinin formalaşmasının produktiv modellərinin yaradılmasına qarşı spesifik həssaslığından ibarət olan sabit fərdi xassələri kimi təyin edirlər. Tədqiqatçılar pedaqoji qabiliyyətlərin iki böyük qrupunu ayırd edirlər:

1. Müəllimin şagirdin şəxsiyyətinin fərdi özünəməxsusluğuna daxil olmaq və özü – özünü başa düşmək imkanını təyin edən perseptiv – refleksiv qabiliyyətləri. Bu qabiliyyətlər aparıcıdır.

2. Digər insana təsir etmək bacarığı ilə bağlı olan proyektiv, konstruktiv, idarəetmə qabiliyyətləri.

3. Perseptiv – refleksiv pedaqoji qabiliyyətlər. Buraya digər insanın öyrənilməsi, başa düşülməsi, başqasının dərdinə şərik olmaq qabiliyyəti, onun nöqteyi-nəzərində dayanmaq və s. kimi qabiliyyətlər daxildir.

Müəllimin şəxsiyyətinin digər cəhətləri onun xarakteri ilə bağlıdır.

Məqalədə verilmiş informasiyaları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, tələblərin müəllim peşəsinə hazırlığında özünü göstərən ciddi psixopedaqoji problemlər məktəb həyatının pedaqoji təhsillə inteqrasiyasının və ya əlaqəsinin zəif olmasıdır. Zəruri olan biliklər sisteminin tələbələrə verilməsi, onların peşəyə hazırlığını təmin etmir. Hər bir müəllim olmaq istəyən tələbə psixoloji və pedaqoji bilikləri dərindən mənimsəməli, onun praktikaya tətbiqinin psixopedaqoji mexanimzlərinə yiyələnməlidir.

**Məqalənin aktuallığı.** Təhsilin müasir tələblərə uyğunlaşdırılması istiqamətində müəllim şəxsiyyətinin də bu tələblər nəzərə alınaraq formalaşdırılması və bu yolda qarşıya çıxan problemləri müəyyən edib onların həll yollarının axtarılması məqalənin aktuallığını sübuta yetirir.

**Məqalənin elmi yeniliyi.** Müəllim hazırlığında müəllim şəxsiyyətinə verilən tələblərin nəzərə alınması və formalaşdırılmasının psixopedaqoji istiqamətdə təhlili məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən müəllimlər, müəllim olmağa hazırlaşanlar, psixoloqlar, və pedaqoji profildə təhsil alan tələbələr istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1989, 540 s.

2.Cabbarov R.V. Gerçəklik terapiyası və yaşamaq sənəti. Bakı: Zərdabi LTD, 2017, 216 s.

3. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: Maarif, 1991, 196 s. s.170).

4. Əliyev B.H., Əliyeva K.R., Cabbarov R.V. Pedaqoji psixologiya: Dərslik. Bakı,Təhsil, 2011, 256 s.,

5. Маркова А.К. Психология труда учителя: Кн. для учителя. М.: Просвещение, 1993,192 с.

**Г.А. Худа-заде**

## Требования к личности и профессии учителя в современности


### Резюме

Становление личности педагога и ее проявление в педагогической деятельности тесно связано с управлением педагогическими способностями. При этом способность влиять на отдельные действия другого человека и его поведение в целом, ориентироваться на мотивы и цели учащегося и управлять ими через них, не превращать управление в манипулирование другим человеком. Обеспечение последовательной ориентации этих умений в структуре личности педагога может быть залогом профессиональной подготовки педагога.


**K.A. Xuda-zada**

## Requirements for the personality and profession of a teacher in modern times


### Summary

The formation of the teacher's personality and its manifestation in pedagogical activity is closely connected with the management of pedagogical abilities. At the same time, the ability to influence individual actions of another person and his behavior as a whole, to focus on the motives and goals of the student and manage them through them, not to turn management into manipulating another person. Ensuring a consistent orientation of these skills in the structure of the teacher's personality can be the key to the teacher's professional training.


**Redaksiyaya daxil olub:** 16.05.2022